Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
6 may / 2021

# Vətən müharibəsi Şəhidi doğum günündə anıldı



**Vətən müharibəsinin qaziləri və Şəhid olmuş oğullarımız ölkəmizin hər yerində olduğu kimi İmişli rayonunda da daim diqqət mərkəzində saxlanılır. İmişlinin Hacırüstəmli kəndində 2-ci Vətən müharibəsi döyüşlərində Şəhid olan "Qara-Qartal" ləqəbli Abbasov Asim Rasim oğlunun doğum günü qeyd olunub. Görüşdə İmişli Rayon İcra Hakimiyyətinin əməkdaşları, Şəhidin təhsil aldığı orta məktəbin müəllim və şagirdləri, döyüş yoldaşları, qohumları, yaxınları, rayon ictimaiyyəti igid Vətən oğlunun məzarı üstünə tər qərənfillər düzüb, əziz xatirəsini ehtiramla yad ediblər.**

**Ziyarət zamanı Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qırx dörd günlük Vətən müharibəsində qazanılan qələbənin tarixi əhəmiyyətindən danışılıb, döyüşlərdə şəhid olan igid oğullarımızın xatirəsinin həmişə əziz tutulacağı qeyd edilib. Görüşdə Şəhidimizin döyüş yoldaşı Elvin Soltanlı bildirib ki, o 2015-ci ildə Asimlə tanış olub:** "Bizim səmimiyyətimiz yaxın qardaş dostluğuna çevrilmişdi. Onun ən ağır yerlərdə keşməkeşli xidmətləri olub. O müharibədən əvvəl kəşfiyyət rəisi polkovnik-leytenant Orxan Əkbərov və baş leytenant Şahlar Nəcəfovla dəfələrlə düşmən arxasına keçib döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirmişlər. Əkbərov Orxan, Nəsirov Şahlar və Asim 2014-cü ilin aprel döyüşlərində çox fəal iştirak etmiş, Aşağı Veysəlli istiqamətində dəfələrlə düşmən arxasına keçib onlara ağır zərbələr vurmuşlar".

**E.Sultanlı qeyd edib ki, Asimin haqqında danışmağa çətinlik çəkir:** "Fikirləşirəm ki, nəyisə düzgün ifadə edə bilmərəm. Amma onu deyə bilərəm ki, o təmiz, pak insan, sədaqətli dost, cəsur, qorxmaz ordu üçün tam yetişmiş ideal bir kəşfiyyatçı idi. Döyüş yoldaşları da çalışırdı ki, onun kimi nümunəvi ola bilsin. Asim düşmən arxasında olanda qumbara atanla düşmənin postunu vurmaqla bir dəfə yeddi, digərində isə dörd düşməni məhv etmişdi. Onun bu şücaətinin dəfələrlə şahidi olmuşam. Elə bu igidliyin nəticəsində onun aktivində 19 erməni leşinin olduğu deyilir".

Sonda Elvin Sultanlı bütün Şəhidlərimizə rəhmət, valideynlərinə səbir, qazilərimzə böyük Allahdan şəfa diləyib.

**Asimin döyüş yoldaşı Vüqar Səfərov isə bildirib ki, o Asimlə 2016-cı ildən bir yerdə xidmət edib:** "Asim çox qorxmaz, igid bir döyüşçü idi. Onun haqqında danışmaqla göstərdiyi qəhrəmanlıqları ifadə etmək çətindir. Bütün bunları təsəvvür etmək üçün gərək onunla bir olaydın, bu da hər kəsə nəsib olmur. Döyüşün başladığı ilk gün biz Alxanlıdan ön xəttə qədər texnikalarla getdik. Ön xətti yarandan sonra səngər döyüşlərinə girdik. "Ohanyan xətti"ni yardıq. Demək olardı ki, əsas səddi yarmışdıq. Asim bu döyüşə Motaatıcılardan da aparmışdı. Biz erməni postuna hücuma girdik. Qorxaq erməni dığaları cəsur döyüşçülərimizin qarşısında acizlik və qorxaqlıq göstərərək postlarını tərk edib qaçmağa məcbur oldular. Postu ələ keçirdik. Sonra düşmənin üç yaşma yerini aşkarlamalı idik. Bölünüb yarım qruplarla buranı aramaya başladıq. Çünki orada düşmənlərdən yaralı və ya gizlənənləri ola bilərdi. Həmin vaxt Asimin axtarış etdiyi binanı erməni tankı vurdu. Biz onun vurulduğunu bildik və dərhal Sarıyev Fərid, Əliyev Arzu, Abdullayev Xəyal, Abdullazadə İmaməddin və mən onu həmin yerdən çıxara bildik. Onu əvvəlcə Alxanlıya, oradan da Bəhmənliyə hərbi qospitala gətirdik. Asim artıq Şəhidlik zirvəsinə qovuşmuşdu. Mənim üçün nə qədər çətin olsa da zəng edib qardaşı Orxana onun Şəhid olduğunu bildirdim. Biz Şəhid verdik, amma bir addım geri çəkilmədik. Həmin posta bizim N saylı hərbi hissəmiz yerləşdi. Asim qorxmaz döyüşçü, igid kəşfiyyatçı idi. Onun "Qara-Qartal" ləqəbi erməni dığalarını çox qorxutmuşdu. Asim həmişə qəlbimizdə yaşayır və yaşayacaq".

Şəhidin doğum günü təhsil aldığı birinci Qarabağ şəhidi Mehman Süleymanov adına Hacırüstəmli kənd tam orta məktəbində də qeyd olunub. 2-ci sinifdə oxuyan oğlu Rasimin sinif otağına baxış keçirilib, şagirdlər vətənpərvərlik mövzusunda şeirlər söyləyib və həmin sinif atası Asimin adına verilib. Qeyd edək ki, Şəhid Asim Abbasov 1987-ci ilin may ayının 1-də İmişli rayonunun Hacırüstəmli kəndində anadan olub. Onun bir oğlu, üç azyaşlı qız övladı var. Cəsur kəşfiyyatçımız Füzuli döyüşlərində həlak olub.

**Döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə, Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, Asim Abbasov ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.**

Ərəstun TAPDIQOĞLU